Dekabr 2021
Azərbaycan Respublikasının qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi

# Qanunvericilikdə baş vermiş dəyişikliklər

**Hazırkı buraxılışda biz, aşağıdakılar ilə bağlı qanunvericilikdə baş vermiş dəyişikliklərin icmalını diqqətinizə çatdırmaq istərdik:**

- Vergi Məcəlləsinə edilmiş dəyişikliklər
- Yalnız nağdsız qaydada həyata keçirilməli olan yeni ödənişlər
- Xarici şirkətlərə münasibətdə dövlət satınalma zamanı yeni tələb
- Minimum aylıq əməkhaqqının məbləği artırılıb
- Xüsusi karantin rejimdə dəyişikliklər
- Mülki Məcəlləsinə edilmiş dəyişikliklər
- "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda edilmiş dəyişikliklər

## Vergi Məcəlləsinə edilmiş dəyişikliklər

29 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun dərc edilib. Vergi Məcəlləsinə edilmiş əsas dəyişkliklər bu məktuba əlavə olunmuş təqdimatda əks olunub. Diqqətinizə çatdırmaq istəyirik ki, əksər dəyişikliklər 2022-ci il yanvarın 1-dən qüvvəyə minir, digərləri isə təqdimatda qeyd olunan tarixlərdə.

## "Nağdsız hesablaşmalar haqqında" Qanununda edilmiş dəyişikliklər

29 dekabr 2021-ci il tarixində "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanun (bundan sonra "**Dəyişiklik**" adlandırılacaq) dərc edilib.

Dəyişiklik yalnız nağdsız qaydada həyata keçirilməli olan yeni ödənişləri müəyyən edib. Qeyd edilmiş nağdsız hesablaşmalı olan əməliyyatları təqdim edirik:

- pərakəndə satış qaydasında (*avtomobillər istisna olmaqla*) təqdim edilən malların satışı üzrə bir əməliyyat çərçivəsində **4,000** manatdan artıq olan ödənişlər;
- tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində **500.00** manatdan artıq olan ödənişlər;
- ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;
- lotereyalar və idman mərc oyunları üzrə ümumi məbləği 3,000 manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).

Dəyişiklik 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

### ► “Dövlət satınalmaları haqqında” Qanununda edilmiş dəyişikliklər

29 dekabr 2021-ci il tarixində “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanun (bundan sonra “**Dəyişiklik**” adlandırılacaq) qəbul edilib.

Dəyişikliyə əsasən **(i)** tikinti, **(ii)** tikinti quraşdırma və **(iii)** istehsal sahələrinin qurulması ilə bağlı tender qalibi olan qeyri-rezident hüquqi və ya fiziki şəxslərlə satınalma müqaviləsi həmin şəxslərin Azərbaycan Respublikasında vergi uçotuna alınmış daimi nümayəndəlik və ya daimi nümayəndəlik yaratmayan bölməsi olduğu halda bağlanılacaq.

Yəni əgər xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergi uçotuna alınmış daimi nümayəndəlik və ya daimi nümayəndəlik yaratmayan bölməsi olmasa bu cür şəxs dövlət satınalması üzrə müqavilə bağlaya bilməyəcək.

Dəyişiklik 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

### ► Minimum aylıq əməkhaqqının məbləği artırılıb

“Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli Sərəncamına əsasən 2022-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqının məbləği 300 manat olaraq müəyyən edildi

### ► Xüsusi karantin rejimdə dəyişikliklər

11 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti xüsusi karantin rejimində bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə 389 saylı qərar qəbul edib (bundan sonra – “**Qərar**” adlandırılacaq).

Qərara əsasən ictimai iaşə obyektlərinin **2021-ci il 31 dekabr saat 00:00-dan etibarən 2022-ci il 1 yanvar saat 02:00-dək** sanitariya-epidemioloji tələblərə riayət edilməsi şərti ilə fəaliyyət göstərməsinə icazə verilir.

Eyni zamanda, Qərara əsasən **2022-ci il fevralın 1-dən** etibarən aşağıda göstərilən bütün şəxslərin müvafiq olaraq **(i)** COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmaları və ya **(ii)** COVID-19-dan sağalaraq immunitetə malik olmaları, yaxud **(iii)** COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən təsdiqedici sənədlər tələb edilir:

- dövlət orqanlarının (qurumlarının) əməkdaşları;
- tibb, əczaçılıq, elm və təhsil müəssisələrinin əməkdaşları (*əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq*);
- siyahısı “Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarının əlavəsində nəzərdə tutulan iş və xidmət sahələri işçilərinin. Həmin siyahıda müxtəlif sahələrə, o cümlədən kommunal, nəqliyyat, loqistika, kommunikasiya, ticarət və ictimai iaşə, maliyyə xidmətləri və digər sahələrə aid eilmiş iş və xidmət sahələri öz əksini tapıb.

## ► Mülki Məcəlləsinə edilmiş dəyişikliklər

19 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə Qanun (bundan sonra "**Dəyişiklik**" adlandırılacaq) qəbul edilib.

Dəyişikliyə əsasən bundan sonra şəxslərin icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə yaranacaq borclar Banklar tərəfindən həmin şəxslərin bank hesablarındakı vəsaitlər hesabına növbəliyi gözləmək şərti ilə silinə biləcək.

Onu da qeyd edək ki, müştərinin hesabında olan pulun ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə silinmə 6 növbə üzrə həyata keçirilir, və icbari tibbi sığorta haqları dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə dövlət fonduna və bələdiyyələrin büdcələrinə ödənişlər ilə bərabər olaraq üçüncü növbəyə daxildir.

Həmçinin onuda qeyd edək ki analoji dəyişikliklər həmçinin 19 noyabr 2021-ci il tarixində "İcra haqqında" Azərbaycan Respublikası Qanunundada edilmişdi.

## ► "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda edilmiş dəyişikliklər

19 noyabr 2021-ci il tarixində "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (bundan sonra "**Dəyişiklik**" adlandırılacaq) qəbul edilib.

Dəyişikliyə əsasən normativ hüquqi aktların rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi normativ hüquqi aktların rəsmi dərc üsullardan biri kimi müəyyən edilib.

Dəyişikliyə əsasən normativ hüquqi aktın rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi günü onun ilk dərc edilməsi tarixi və qüvvəyə minməsi tarixi hesab olunur.

## Əlaqə üçün:

Əlaqə üçün Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik.

Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:

**Arzu Hacıyeva**
Partnyor, Vergi və hüquq xidmətləri

Tel: +994 (12) 490 7020
Email: arzu.hajiyeva@az.ey.com

**Hidayət Əzimov**
Hüquq xidmətlərinin rəhbəri

Tel: +994 (12) 490 7020
Email: hidayat.azimov@az.ey.com

**Leyla Salahova**
Menecer, Vergi və hüquq xidmətləri

Tel: +994 (12) 490 7020
Email: leyla.salahova@az.ey.com

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

EY

Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti müştərilər, insanlar və bütün cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılması və kapital bazarlarına inamın artırılmasına töhfə verərək daha yaxşı iş dünyasını qurmağa çalışır.

EY şirkətinin dünyanın 150-dən çox ölkəsində müxtəlif sahələrdə çalışan komandaları informasiya və texnologiyanın istifadəsi ilə məlumatlara olan etibarı təmin edir və onların doğruluğunu təsdiqləyir, müştərilərin inkişafına, dəyişməsinə və uğurla fəaliyyət göstərməsinə kömək edir.

EY şirkətinin audit, konsaltinq, hüquq, vergi, strategiya və sövdələşmələr sahəsində çalısan mütəxəssisləri bu gün dünyanın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Global Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkətinin fərdi məlumatları necə toplaması və istifadə etməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

MDB şirkətləri ilə qarşılıqlı əməkdaşlıq aparan EY, onların öz işgüzar məqsədlərinə çatmasına kömək edir. Moskva, Yekaterinburq, Kazan, Krasnodar, Novosibirsk, Rostov-Don, Sankt-Peterburq, Tolyatti, Vladivostok, Almatı, Atırau, Nur-Sultan, Bakı, Kiyev, Minsk, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 19 MDB ofisində 5,500 mütəxəssis çalışır.

© 2022-ci il "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı.

Bütün hüquqlar qorunur.

Əlaqə

| | |
|---|---|
| Almatı<br>+7 (727) 258 5960 | Minsk<br>+375 (17) 209 4535 |
| Nur-Sultan<br>+7 (7172) 58 0400 | Moskva<br>+7 (495) 755 9700 |
| Bakı<br>+994 (12) 490 7020 | Sankt-Peterburg<br>+7 (812) 703 7800 |
| Kazan<br>+7 (843) 567 3333 | Daşkənd<br>+998 (71) 140 6482 |
| Kiyev<br>+380 (44) 490 3000 | Tbilisi<br>+995 (32) 43 9375 |

EY
Building a better working world